Kredo.- 2022.- 15 dekabr.- S.16.

# “Sarəng” sənədli filmi




“Masal prodakşn”ın tanınmış bəstəkar, şair, həkim, alim, pedaqoq Mir Kazım Aslanlı Sarəngin həyat və yaradıcılığına həsr olunan sənədli film çəkibdir. Bəri başdan deyim ki, bu səhnə əsərin İdeya və ssenari müəllifi Cəfər Cəfərov, quruluş və təsvir rejissoru Elsevər Əliyev, montaj rejissoru Faiq Mirzə, diktor Gültəkin Cəfərova, məsləhətçi Nurəddin Ədiloğludur. Sənədli filmdə Mir Kazım Aslanlı Sarəng rolunu Masallı Xalq Teatrının baş rejissoru Cəmaləddin Əliyev canlandırıb. Masallıda Nizami Kino Mərkəzində “Sarəng” sənədli filminin təqdimatı keçirilib. Tədbirdə Milli Məclisin deputatları, Mədəniyyət işçiləri, Kino mütəxəssisləri, Elm xadimləri, QHT və Media rəhbərləri iştirak ediblər.

Tədbirdə giriş sözü söyləyən “Masal prodakşn”ın baş direktoru, araşdırmaçı jurnalist Cəfər Cəfərov bildirib ki, Mir Kazım Aslanlı Sarəngin 110 illik yubileyi ərəfəsində çəkilən sənədli filmdə onun bəstəkar, şair, alim olaraq bizə miras qoyduğu irsi öyrənilir və təbliğ edilir.

Sonra Regional Hüquqi və İqtisadi Maarifləndirmə İctimai Birliyinin və Gözəl Yaşam Mərkəzinin dəstəyi hesabına ərsəyə gələn sənədli filmə baxış olunub. Nümayişdən sonra millət vəkilləri, elm xadimləri filmin ərsəyə gəlməsində “Masal prodakşn”a minnətdarlıq ediblər.

***Zəfər ORUCOĞLU,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***